# *TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ VƏ İDARƏ OLUNMASI MƏSƏLƏLƏRİ*

UOT 371.

***Südabə Məmmədəli qızı Qurbanova,***
*pedaqogika üzrə fəlsəfə doktoru , dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

## DEMOKRATİK İDARƏETMƏ ANLAYIŞININ MƏZMUNU

***Судаба Мамедали гызы Гурбанова,***
*доктор философии по педагогике, доцент*
*Азербайджанский Государственный Педагогический Университет*

## СОДЕРЖАНИЕ ПОНЯТИЯ ДЕМОКРАТИЧЕСКОГО УПРАВЛЕНИЯ

***Sudaba Mammadali Gurbanov,***
*doctor of philosophy in pedagogy, associate professor*
*Azerbaijan State Pedagogical University*

## THE CONTENT OF DEMOCRATİC GOVERNANCE

**Xülasə**: Elmi məqalədə demokratik idarəetmə anlayışının məzmunu açıqlanaraq tədqiqata cəlb olunmuşdur. Burada eyni zamanda bu anlayışın mahiyyətinə daxil olan məfhumların mahiyyətinə açıqlıq gətirilmişdir. Təhsil menecmenti idarəetmə sahəsi olaraq elmi-nəzəri baxımdan araşdırılmışdır.
***Açar sözləri:*** *idarəetmə, məzmun, demokratik, menecment, rəhbər, idarəetmə üslubu*

**Резюме:** В данной статье раскрыто и привлечено к исследованию понятие демократического управления. В то же время была уточнена сущность этой концепции. Образовательный менеджмент был рассмотрен как научно-теоретическая область управления.
***Ключевые слова:*** *управление, содержание, демократическое, менеджмент, руководитель, стиль управления*

**Summary**: The scientific article describes the concept of democratic governance and has been involved in research. At the same time, the essence of this concept has been clarified. Education management has been scientifically-theoretically examined as a management area
***Key words:*** *management, content, democratic, management, leadership, management style*

Müasir dövrdə təhsilin təşkili və idarə olunması məsələsi əhəmiyyət kəsb edən amillərdən biridir.

"İdarəetmə" anlayışı geniş məfhumdur. Qərarların qəbul edilməsi, bu qərarlara nəzarətetmə, işin planlı şəkildə təşkil olunması və yekunlaşması prosesi birlikdə idarəetməyə daxildir. Başqa sözlə, idarəetmə - təhsil müəssisələrində gedən prosesləri tənzimləyir. Unutmaq olmaz ki, düzgün idarə olunan proses uğurlu nailiyyətin əldə olunmasına səbəb olur. Təhsil müəssisələrinin keyfiyyəti idarəetmədən asılıdır.

İdarəetməni öyrənən sahə menecment adlanır. Təhsil menecmenti (təhsilin idarə olunması) pedaqogikanın mühüm sahələrindən biridir. XIX əsrin sonu, XX əsrin əvvəli elm kimi təşəkkül tapmışdır. İdarəetmə təhsilin məzmunundan irəli gəlir. Belə ki, ilk öncə təhsilin məzmununu yeniləşdirmək, daha sonra idarə etmək lazımdır. Təhsil menecmentinin məzmununa aşağıdakılar daxildir:

- təhsilin təşkilinin öyrənilməsi;
-rəhbər orqanlarının işi;
-idarəetmənin formaları;
-dərs cədvəlinin tərtibi;
-pedaqoji əməyin təşkili;
-idarəetmədə maddi-texniki baza məsələləri və s.

Təhsil menecmenti təhsil prosesinin iştirakçılarının tələblərini və maraqlarını özündə əks etdirir. Menecment anlayışı ilə menecer anlayışını eyniləşdirmək olmaz. Belə ki, menecment ingilis sözü olaraq, mənası "rəhbərlik etmək", "idarə etmək" deməkdir, menecer isə idarəetmə subyektidir, başqa sözlə, menecment üzrə mütəxəssisdir. Menecer ingilis sözü olub, "manager"- "idarəedici" deməkdir. Başqa sözlə desək, menecment idarəetmə haqqında elmdir, menecer isə idarəetmə sahəsi üzrə mütəxəssisdir. Menecerlərin fəaliyyətinin əsas məqsədi cəmiyyət üzvlərinin artmaqda olan tələbatlarının ödənilməsidir. Bunun üçün əsas tələblərdən biri idarəçi şəxsin xüsusi biliyə, bacarığa sahib olmasıdır. O, fəaliyyət iştirakçılarından biliyi və bacarığı ilə fərqlənməyi bacarmalıdır, kollektiv içərisində sayılıb-seçilən, hamı tərəfindən qəbul edilən olmalıdır. Səmərəli fəaliyyət üçün o təkcə öz sahəsi üzrə biliklərə yiyələnməklə kifay-ətlənməyib digər sahələrdən də məlumatlı olmalı, xüsusən, pedaqogika, metodika, yaş fiziologiyası, psixologiya kimi fənlərdən xüsusi biliyə malik olmalıdırlar. Menecer hesab edilən şəxslər aşağıdakılardır:

-müəssisə rəhbərləri
-şöbə rəhbərləri
-nəzarətçilər və.s

Burada idarəetmə sahəsi üzrə alim R. Məmmədzadənin fikrinə əsaslanaraq qeyd edə bilərik ki, "Əsl lider, əsl rəhbər həm qayğıkeş olmalıdır, həmdə tələbkar olmalıdır" (7, 44 ).

Keçmiş dövrdə menecment sözü işlənmirdi, onun əvəzində "adamları idarəetmə məharəti", digər tərəfdən yunanca "demoqoq" işlədilirdi. Həmçinin qeyd edə bilərik ki, keçmişdə rəhbər şəxs insanların şüuruna və onların ürəyinə təsir edə bilən biri kimi başa düşülürdü. İtalyanca "menecment" –"atları idarə etməyi bacarmaq" mənasında işlədilsə də, sonradan insanları idarə etmək mənasında işlədilmişdir. Rəhbərlik üslubu idarəetmə münasibətlərinin konkret, real ifadəsi olub, idarəetmə fəaliyyətinin və idarəetmə subyektlərinin səmərəliliyini müəyyən və nümayiş etdirir (1, 125).

İdarəetmənin əsas anlayışlarından biri rəhbərlik üslubudur. Rəhbərlik üslubu idarəetmədə obyekt və subyekt arasındakı idarəetmə münasibətlərini əks etdirir. İdarəetmə fəaliyyətinin rəhbər tərəfindən necə səmərəli yerinə yetirilməsindən asılıdır. Bu yöndən rəhbərlik üslubunun 3 növü var:

1) Avtoritar üslub. Bu üslubda rəhbər təkbaşına qərar qəbul edir, işçilərə şəxsiyyət kimi yanaşmır.

2) Liberal üslub. Bu üslubda rəhbər səhlənkardır. Belə ki, rəhbər işçilərə nəzarət etmir, hər şeyi onların öz ixtiyarına buraxır.

3) Demokratik üslub.

Bu üslubda rəhbər işçi qrupunun rəyini nəzərə almaqla birgə müzakirə aparır, qərarlar qəbul edir. Rəhbər işçilərə qayğı göstərir, onlara şəxsiyyət kimi yanaşır. Demokratik idarəetmə üslubu bir çox sahələrə aiddir, xüsusilə də təhsil sahəsinə aiddir. Demokratiya yunan sözü olub, demos-xalq, kratos-hakimiyyət deməkdir. Demokratik idarəetmə üslubunda rəhbərlik-pedaqoji kollektiv, rəhbərlik – şagird, müəllim-şagird, müəllim-valideyn komponentlərinə üstünlük verilir. Təhsili idarəetməkdə məqsəd nədir? İdarəetmə - qarşıya qoyulmuş məqsəddən asılı olaraq işin planlı şəkildə həyata keçirilməsidir.

Təhsil müəssisəsinin idarə olunmasının özünəməxsus mexanizmi vardır. Belə ki, təhsil müəssisəsinin idarə olunması asan bir proses deyil, o çox mürəkkəb və bir neçə mərhələdən ibarət olan prosesdir. İlk öncə qeyd edək ki, idarəetmə prosesinin tətbiqi məqsəd olmadan mümkünsüzdür. Hər bir işin başlanğıcı məqsəddən başladığı kimi təhsil sahəsində də idarəetmə prosesinin ilk mərhələsi məqsəddir. Məqsəd – fəaliyyətini həyata keçirə bilmək və istiqamətləndirmək üçün əvvəlcədən düşünülmüş bir anlayışdır. Məqsədsiz fəaliyyət ola bilməz. Təhsil müəssisələrinin idarəolunmasında əsas məqsədlərdən biri optimal nəticənin alınmasıdır

Qeyd edək ki, idarəetmə rəsmi və qeyri rəsmi olur. Rəsmi informasiya vəzifəli şəxslər tərəfindən, qeyri rəsmi informasiya ayrı-ayrı şəxslər tərəfindən daxil olan məlumatdır. Nəzarətetmə isə idarəetmənin digər bir mərhələsidir. Belə ki, plan əsasında işin gedişatı nəzarətdə saxlanılır. Daha sonra əldə olunan məlumatlar ümumiləşdirilir, təhlil edilir, qiymətləndirilərək nəticə çıxarılır. Bütün bu mərhələləri həyata keçirən şəxs - rəhbər adlanır.

Rəhbərlik çox geniş anlayışdır. O, işə istiqamət verən, başçılıq edə bilən ,müəyyən qərarlar qəbul edən, idarəetməni düzgün şəkildə həyata keçirə bilməsi səlahiyyəti verilən şəxsdir.

İdarəetmə mədəniyyəti rəhbərin əsas xüsusiyyətlərindən biri olmalıdır. “Rəhbərlik” anlayışı isə idarəetmədən daha geniş məfhumdur.

Təhsil müəssisələrində rəhbər şəxslərin vəzifəsi təhsil müəssisələrinin nizamnaməsi ilə təyin olunur. Rəhbər işçi işinin peşəkarı olan, təhsil sistemini dərindən bilən və ən əsası idarəçiliyi bacaran ali pedaqoji təhsilli biri olmalıdır. O fəaliyyətin hansı nəticə verəcəyini əvvəlcədən bilməlidir, əks halda heç bir müvəffəqiyyət əldə edə bilməz. İdarə etmək fəaliyyət göstərmək, təsir etmək deməkdir. İdarəetmə sahəsində mütləq idarə etməyi bacaran şəxs fəaliyyət göstərməlidir. Bu fəaliyyət sahəsi ilə bağlı biliyə sahib olmayan, idarəçilik bacarığı olmayan şəxs bu vəzifədə nailiyyət əldə edə bilməyəcək, əksinə bir sıra nöqsanlar yaradacaq. Kadrların öz işlərində yaratdığı ciddi nöqsanlar onların demokratik ruhda tərbiyə edilməməsi ilə bağlıdır, səbəb isə bunun üçün şəraitin olmamasıdır.

Təhsil sahəsi çox mürəkkəb bir sahə olduğu üçün burada edilən nöqsanların aradan qaldırılması digər sahələrdə edilən nöqsanların aradan qaldırılmasına bənzəməz. Belə ki, digər sahələrdə yaranan nöqsanları aradan qaldırmaq mümkün olduğu halda, təhsil sahəsində yaranan nöqsanları aradan qaldırmaq çox çətindir. Çünki unutmayaq ki, təhsil cəmiyyəti irəli aparan bir sistemdir. Tədris müəssisələrində təhsilin mövcud vəziyyətinin nəzərdən keçirilməsi və bu sahədə yeniliklərin tətbiqi baş verə biləcək nöqsanların aradan qaldırılmasına zəmin yaradır.

Təhsil islahatında idarəetmə məsələlərinə xüsusi diqqət yetirilir. Mahiyyət isə təhsilin demokratik tələblərlə idarə olunmasıdır.

Qeyd edək ki, idarəetmə Azərbaycan Respublikasının Konstitusiyasına, Təhsil Qanununa, təhsil müəssisələrinin Nizamnamələrinə və Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasına istinad olunur. Qeyd edək ki, təhsil müəssisələrinin idarə olunması prosesi tədqiqat xarakteri daşıyır. Bu o deməkdir ki, idarəçi şəxs prosesin nəticəsini əvvəlcədən bilməli, baş verə biləcək nöqsanları öncədən görməli və aradan qaldırmalı, mənfi və müsbət tərəflər üzə çıxarılıb, müsbət tərəflərin inkişafı üçün müəyyən tədbirlər həyata keçirməyi bacarmalıdır. Bütün bunları düzgün şəkildə həyata keçirməsi səbəbi ilə rəhbər şəxs işini məqsədə uyğun əvvəlcədən planlaşdırır, proqnozlaşdırır.

Demokratik təhsilin məqsədi daha dərin biliyə sahib olmaq istəyən vətəndaş formalaşdırmaqdır. Bunun üçün isə rəhbər şəxs demokratik fikirli olmalıdır. Demokratik idarəetmədə əsas amillərdən biri də təhsil müəssisələrinin tipinin dəyişdirilməsidir, bu da özünü tədris planı və proqramlarının yeniləşdirilməsində göstərir. Lakin qeyd etmək lazımdır ki, tədris planı nə qədər müxtəlif olsa da ümumi səciyyə daşıyır. Belə ki tədris planı keçiriləcək fənlərin adları, bu fənlərin keçirilmə ardıcıllığı, bu fənlərin tədrisinə ayrılan vaxt, təhsilin ümumi müddəti, tətil və ya semestrləri və s. özündə əks etdirir.

**Problemin aktuallığı:** İdarəetmə - təhsil müəssisələrində gedən prosesləri tənzimləyir. Unutmaq olmaz ki, düzgün idarə olunan proses uğurlu nailiyyətin əldə olunmasına səbəb olur. Təhsil müəssisələrinin keyfiyyəti idarəetmədən asılıdır.

**Problemin elmi yeniliyi:** Elmi məqalədə demokratik idarəetmə anlayışının mahiyyətinə aydınlıq gətirilmiş, idarəetmədə təhsil menecmentinin keyfiyyətləri aşkara çıxarılmışdır.

**Problemin tətbiqi əhəmiyyəti:** Elmi məqalədə istifadə olunan ideyalardan və nəzəri fikirlərdən ali məktəblərin və ümumtəhsil məktəblərinin demokratik üslubda idarə olunmasında nəzəri fikirlər olaraq istifadə oluna bilər.

**Ədəbiyyat:**


1. Həmidov H. Azərbaycanda elm və təhsil siyasəti .Bakı: Təknur ,2002.
2. Məmmədzadə R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı: Müəllim, 2010.
3. Məmmədzadə M. Yeni təlim texnologiyaları .Bakı: Milli məclisin nəşri , 2009.
4. Məmmədzadə R. İdarəetmə mədəniyyəti (etik-psixoloji münasibətlər). Bakı, 1999.
5. Məmmədzadə R. İxtisasartırma təhsili (yeni problemlər-yeni münasibətlər ). Bakı, 2001.
6. Məmmədzadə R., Abdullayev A., Kərimov F., Cabbarov R, Rəsulov S., Quliyev Ə. Təhsilin idarəedilməsinin bəzi məsələləri. Bakı: Müəllim, 2008.


**E-mail:** sudabakurbanova@ramb.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* K. R. Quliyeva
*ped.ü.fəls.dok., dos.* S. Orucova
**Redaksiyaya daxil olub:** 11.12.2018